YENİ TƏFƏKKÜR Yüksəlişə doğru yol!



# Yaddaşları vərəqləyərkən

***Xeyli vaxtdır, babamın əmisi - XX əsrin əvvəllərində Azərbaycan təsviri sənətinin yaradıcılarından olan rəssam Nəcəf Rasim (Nəcəfqulu Cavad oğlu Nəzərli) haqqında yazmaq istəyirdim. Hələ məktəbli ikən anamın əmisi oğlu, ilk plakatçı rəssam, respublikanın Əməkdar rəssamı Hacıağa Nəzərli keçən əsrin 70-ci illərində "Bakı" qəzetində sənətşünaslıq doktoru, professor Mürsəl Nəcəfovun Nəcəf Rasim haqqında məqalə yazdığını bildirmişdi. Uzun illər bu yazını əldə edə bilmirdim. Günlərin birində R.Mustafayev adına İncəsənət Muzeyinin əməkdaşı Əsəd Quliyevlə söhbət zamanı o, mənə bildirdi ki, onda Mürsəl Nəcəfovun 1977-ci ildə Bakıda, "Gənclik" Nəşriyyatı tərəfindən buraxılmış "Rəssam və Zaman" adlı kitabı vardır. O kitabda Nəcəf Rasim haqqında müəllifin yazısı da yer alıb. Bu məlumatdan çox sevindim. O, məmnuniyyətlə kitabdan çıxarışı mənə təqdim etdi. Kitab kiril əlifbası ilə 48 il öncə dərc edildiyindən, onun indi latın qrafikası ilə yenidən dərc olunmağı zənnimcə, həm məqsədəuyğundur, həm də oxucularda böyük maraq kəsb edər. Odur ki, həmin yazını qısa düzəlişlərlə yenidən oxucuların ixtiyarına verirəm.***

*Qafar Əsgərzadə,*
*Əməkdar jurnalist, pedaqogika üzrə fəlsəfə doktoru, dosent.*



## Rəssam və zaman

Bu əhvalat 1949-cu ildə baş vermişdir. Bir axşam xalq rəssamı Lətif Kərimovun yenicə köçdüyü mənzildə, divardan asılı iki mənzərə gördüm. Kiçik ölçülü mənzərələr akvarel boyalarla işlənmişdi. Şəkillərin aşağı hissəsində sağ küncdə ərəb əlifbası ilə yazılı imza gördüm. Oxudum: Nəcəf Rasim... Belə bir rəssamı tanımırdım. Nə inqilabdan əvvəl, nə də 20-30-cu illərdə Bakıda Nəcəf Rasim adlı bir rəssamın işlədiyindən xəbərim yox idi, onun heç bir əsərini görməmişdim.

Mənzərələrin (hər iki mənzərədə dəniz, yelkənli qayıq, sahil və s. təsvir olunmuşdur) peşəkar sənətkar rəssam tərəfindən çəkildiyinə şübhə yox idi. Belə qənaətə gəldim ki, Nəcəf Rasim kim idisə, hər halda rəssamlıq təhsili görmüşdü. Bir müddət sonra Lətif Kərimov Nəcəf Rasimin akvarellərini Rüstəm Mustafayev adına İncəsənət Muzeyinə təqdim etdi. Mən də o vaxtlar muzeydə işləyirdim. Akvarel mənzərələri ekspozisiyaya daxil etdik. Mənzərələrin müəllifi haqqında məlumat toplamağa başladıq.

Nəcəf Rasim haqqında ilk məlumatı mərhum Xalq artisti Mirzağa Əliyevdən öyrəndik. Muzeyin elmi katibi M.Tərlanovla söhbəti zamanı Mirzağa Əliyev vaxtı ilə Nəcəf Rasimlə yaxın dost olduğunu söylədi, onun tərcümeyi-halına dair çox qısa, lakin maraqlı məlumat verdi. Mirzağa Əliyev üstəlik bizə bir fotoşəkil də göstərdi. Şəkil çox güman ki, əsrimizin ikinci onilliyində çəkilmişdi. Qaragöz, qaraqaş, girdəsifət bir gənc... sağ qaşına qədər əyilmiş dəri papaq. O dövrün ziyalılarına məxsus geyim. Əlində kitab...

Bir müddət sonra plakatçı rəssam Hacıağa Nəzərovdan öyrəndik ki, Nəcəf Rasim onun atası mürəttib Məmməd Cavad Nəzərlinin yaxın qohumu - əmisi olmuşdur. Hacıağanın və qardaşı Ədalətin köməyi ilə Nəcəf Rasimin bir neçə əsərini tapıb muzeyə verdik. Axtarışı davam etdirdikcə bu naməlum rəssam haqqında əlavə məlumat toplayırdıq. Təqaüddə olan müəllim Məcid Əliyevin xatirələri də bizə əlavə material verdi. Nəhayət öyrəndik ki, Nəcəf Rasim (Nəcəfqulu Cavad oğlu Nəzərli) 1889-cu il martın 20-də Xızıda, Sayadlar kəndində anadan olub. Uşaq ikən ailəsi ilə birlikdə Bakıya köçüb, əvvəlcə molla məktəbində, sonra isə "Nəşr-maarif" cəmiyyətinin təşkil etdiyi "Üsul-cədid" məktəbində oxuyub. Nəcəfqulunun oxuduğu məktəbə müəllim Mirzə Qədir İsmayılzadə (M.Müşfiqin atası) rəhbərlik edib. Maarifpərvər, dedikcə xeyirxah bir insan olan Mirzə Qədir Nəcəfqulunun rəsm məşğələlərinə həvəs göstərdiyini biləndə, ona hər dürlü kömək eləmiş, bu sənətin arxasınca getməyi məsləhət görmüşdür. 1910-cu ildə "Hümmət" in köməyi ilə Nəcəfqulu Nəzərli Peterburqa gedib, iki il orada rəssamlıq məktəbində təhsil alıb. Azərbaycanlı gəncin hansı məktəbdə oxuduğu haqda hələlik dəqiq məlumat yoxdur. Ola bilsin ki, o, Peterburqdakı xüsusi studiyaların birində məşğul olmuş, rəssamlıq vərdişlərini öyrənmişdir. Bildiyimizi budur ki, Nəcəfqulu 1912-ci ildə maddi çətinliklər üzündən təhsilini yarımçıq qoyub vətənə qayıdıb, bir müddət Bakıda, daha sonra Xızıda müəllim işləyib. Xızıda işlədiyi illərdə Nəcəf Rasim gənclərin savad alması, xüsusi ilə ədəbiyyata, tarixə, rəsm vərdişlərinə yiyələnməsi üçün əlindən gələni əsirgəməyib. Nəcəf Rasimin incəsənət və maarif sahələrindəki fəaliyyətindən narazı qalanlar da az olmayıb. Fanatizm qurbanları onu Xızıdan qovmağa cəhd göstəriblər.

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasında sonra Nəcəf Rasim Xalq Maarifi Komissarlığının həyata keçirdiyi mədəni-maarif tədbirlərinə qoşulub. Bir rəssam kimi o, şəhərin tərtibat işlərində, eksteryer və interyerlərin-binaların zahirinin və daxilinin bəzədilməsində bilavasitə iştirak edib. Dəqiq məlumdur ki, Nəcəf Rasim Kommunist küçəsindəki Akademiya binasının fasadı üçün ornamental yazı bəzəklərini işləyib. Hilal Əhmər (Qızıl Aypara) cəmiyyətinin təbliğat tramvayına şəkillər çəkib və s. 20-ci illərdə Bakıda Nəcəf Rasimin "Bədii işlər sexi"ni görənlər təsdiq edirlər ki, o, eyni zamanda mənzilləri bəzəyən mənzərələr çəkib tanış-biliş arasında yayırdı. Çox ola bilsin ki, belə mənzərələr indi də bakılıların mənzillərində qalıb. Nəcəf Rasim ömrünün axırlarında Qubada yaşamış, 1929-cu il oktyabrın 9-da orada vəfat etmişdir. Məzarı Yasamal qəbiristanlığındadır. (Q.Ə)

Nəcəf Rasimin qardaşı Ələkbər Nəzərli dövrünün messenantı Kor Əhəddən sonra ilk qarmon ifaçısı olmuşdur. O, Üzeyir Hacıbəylinin dəvəti ilə "Koroğlu" operasının premyerasının ilk müşayiətçisi olmuşdur. Onun Azərbaycan milli opera sənətinin inkişafında xidmətləri var. O, həmçinin dünyanın ən nadir qarmon alətlərini toplayan kolleksiyasının XIX-XX əsrdə Azərbaycanda ilk və yeganə sahibidir.

N.Rasimin digər qardaşı Mehdi Nəzərli Milli Nəfəs alətləri ustası, muğam bilicisi idi. O da qardaşı Ələkbər kimi Üzeyir Hacıbəylinin dəvəti ilə "Koroğlu" operasının premyerasının ilk müşayiətçisi olmuşdur (Q.Ə).

Nəcəf Rasim pealist rəssam olub. İncəsənət muzeyində 1 il saxlanan işlərindən aydın görünür ki, o, həm naturadan çəkdiyi mənzərələrdə (məsələn, "Qış mənzərəsi"), həm də "xəyaldan" işlədiyi akvarel təsvirlərində təbiətin hər gün, hər saat düşdüyü vəziyyətləri həssaslıqla ifadə etməyi bacarmışdır. Yağlı boyalarla çəkilmiş "Novqorod şəhərinin görünüşü" kolorit gərginliyi səbəbinə romantik əhvali-ruhiyyə oyadırsa, "Dəniz mənzərəsi" akvarel rənglərin şəffaf incəliyi səbəbinə lirik duyğular yaradır.

Nəcəf Rasim haqqında, onun məlum olan əsərləri haqqında bundan artıq danışmağa imkanımız yoxdur. Lakin bilirik ki, Bakıda, Xızıda onun qohumları, yaxın dost və tanışları yaşayır.

Güman etmək olar ki, rəssamın bizə məlum olmayan əsərləri də vardır. Bu qısa məlumatı oxucularımızın nəzərinə çatdırmaqla, Nəcəf Rasimi tanıyanlardan, onun əsərlərini özlərində saxlayan qohumlarından xahiş edirik ki, Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinə xəbər versinlər. Nəcəf Rasimin müasir incəsənət tariximizdə layiq olduğu mövqeyi tutması üçün əlimizdən gələni etməliyik. Xalqa təmənnasız xidmət edən, ömürlərini sənətə qovuşduran sənətkarları unutmaq olmaz.

**Mürsəl Nəcəfov,**
**Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor, Dövlət Mükafatı laureatı**